**Notariuslar tərəfindən şübhəli əməliyyatların müəyyən edilməsi meyarları**

Notariuslar tərəfindən aşağıda qeyd olunan meyarlara uyğun əməliyyatlar müəyyən edilərkən müştəri uyğunluğu tədbirləri həyata keçirilməli, araşdırmalar aparılmalı, **“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsinə əsasən, əmlakın cinayət yolu ilə əldə edilməsinə və/və ya terror aktının hazırlanmasında, təşkil olunmasında və ya törədilməsində, habelə terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi üçün istifadə olunmasına şübhə və ya belə şübhə üçün əsaslar müəyyən edildikdə**, şübhəliliyi təsdiq edən sənəd və məlumatlar əlavə edilməklə müvafiq qayda və formada Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməlidir.

| № | Meyar | Öhdəlik daşıyan şəxs |
|---|---|---|
| 1 | Son on iki ay ərzində şəxsin notarius əməliyyatlarının ümumi həcmi onun orta aylıq gəlirindən yuxarı olduqda.<br>**Qeyd**:<br>aşağı riskli müştərilər üzrə - orta aylıq gəlirin 100 misli;<br>orta riskli müştərilər üzrə - orta aylıq gəlirin 80 misli;<br>yüksək riskli müştərilər üzrə - orta aylıq gəlirin 60 misli. | Notariuslar |
| 2 | Alqı-satqı müqaviləsinin predmeti olan əmlakın qiyməti bazar dəyərindən əhəmiyyətli dərəcədə (50% və fərq 100 000 (bir yüz min) manatdan yuxarı olduqda) fərqləndikdə; | |
| 3 | Eyni şəxs tərəfindən son on iki ay ərzində ümumi dəyəri 500 000 (beş yüz min) manatdan yuxarı olmaqla üçdən çox daşınmaz əmlakın alışı həyata keçirildikdə; | |
| 4 | Son on iki ay və ya daha qısa müddətdə eyni daşınmaz əmlaka dair ikidən çox alqı-satqı əməliyyatı həyata keçirildikdə; | |
| 5 | Məbləği 100 000 (bir yüz min) manatdan və müddəti on iki aydan yuxarı dövr üçün verilən borc vəsaiti üzrə borcalanın həmin borcun qaytarılması üçün gəliri və ya təminatı yetərli olmadıqda; | |
| 6 | Son on iki ay ərzində şəxs tərəfindən iki və daha artıq şəxs adından daşınmaz əmlak üçün ödəniş edildikdə. | |